AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATINDA FOLKLOR ÜSLUBU

İxtisas: 5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Gülnar Nurəddin qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Kamran İmran oğlu Əliyev**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Asif Abbas oğlu Hacıyev**

Filologiya elmləri doktoru, dosent
**Ağaverdi Sərxan oğlu Xəlilov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Məhəmməd Məmmədsaid oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** Filologiya elmləri doktoru, professor
____________________ **Seyfəddin Gülverdi oğlu Rzayev**

**Dissertasiya şurasının elmi katibi:** Filologiya üzrə fəlsəfə doktoru
____________________ **Nizami Şamil oğlu Adışirinov**

**Elmi seminarın sədri:** Filologiya elmləri doktoru, professor
____________________ **Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrün filoloji tədqiqatlarının içərisində uşaq ədəbiyyatı və onun folklor qaynağının öyrənilməsi zəruri bir istiqamətdir. Uşaq ədəbiyyatının uşaqlar tərəfindən mənimsənilməsi metodikası və tədqiqatçılar tərəfindən öyrənilməsi vacib məsələlər sırasındadır. Uşaq ədəbiyyatının ədəbiyyatşünaslıq istiqamətindən öyrənilməsinə və filoloji yönümlü fakültələrdə ədəbiyyat tarixi çərçivəsində tədris edilməsinə baxmayaraq, bu mövzu nəzərdə tutulan dövrün ədəbi materialının folklorla əlaqəsi baxımından müstəqil bir tədqiqatın mövzusu olmayıb.

Bir çox araşdırmalarda tədqiqat predmeti kimi uşaq ədəbiyyatı terminoloji baxımdan dəqiq müəyyənləşdirilməyib. Burada bir-biri ilə əlaqəli iki əsas yanaşma var. Bunlardan biri yaş həddi məsələsidir, digəri isə ədəbiyyatın uşaqlara uyğunluğu məsələsidir. Uşaq ədəbiyyatının yaşı çox olsa da, bu sahədə hələ nəzəriyyə axtarışları davam etməkdədir.

Azərbaycan uşaq ədəbiyyatının yaranması və inkişaf yolunun öyrənilməsi xalqın gələcəyini müəyyənləşdirən gənc nəslin yetişməsində ədəbi-tərbiyəvi ehtiyatların dəyərləndirilməsi baxımından vacib bir məsələdir. XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında aktiv rol oynamış folklor nümunələrinin ədəbi üslub yaratmasının araşdırılması folklorşünaslıq elminin qarşısında duran aktual problemlərdən biridir. Folklorun yazılı ədəbiyyata təsiri, şifahi və yazılı ənənənin qarşılıqlı əlaqəsi əsasında təşəkkül tapan Azərbaycan uşaq ədəbiyyatında folklor üslubunun bir problem kimi tədqiqi filologiyanın aktual vəzifələri sırasına daxildir.

Folklor və yazılı ədəbiyyat əlaqəsinin araşdırılması folklorun qaynaq kimi, ədəbiyyatın dilini, üslubunu və oxucusunu müəyyənləşdirici amil kimi öyrənilməsi bir neçə yöndən aktuallıq daşıyır. İlk növbədə uşaqlar üçün yaradılan ədəbi nümunələrin qaynaqlarının, onların forma və məzmun xüsusiyyətlərinin öyrənilməsi, yeni yetişən nəslin mənəvi tərbiyəsi baxımından dəyərlidir. Biz bilməliyik ki,

uşaqlarımızı hansı ədəblə, hansı mənəvi dəyərlərlə tərbiyə edirik. Uşaq ədəbiyyatı ədəbiyyatın yetkin yaşda olan insanlar üçün olan hissəsindən daha vacibdir. Çünki uşaqların dünyagörüşünün, əxlaqi-mənəvi keyfiyyətlərinin, davranış və zövqlərinin formalaşmasında folklorun və uşaqlar üçün folklor əsaslı ədəbiyyatın rolu böyükdür. Uşaqlar üçün yaradılan ədəbiyyatın folklorla əlaqəsi bütün dövrlərdə mövcuddur və həmişə araşdırılmalıdır. Təlim-tərbiyə sahəsinə təqdim edilən ədəbi məhsulun keyfiyyəti yoxlanılmalıdır və həmişə elmin nəzarətində olmalıdır.

Uşaq ədəbiyyatının əsas qaynağı olan folklor nümunələri və folklorun poetik modelləri həm bu ədəbi yaradıcılığın üslubunu müəyyənləşdirmiş, həm də onun məzmununu xalqın həyat təcrübəsində sınaqdan keçərək gəlmiş xalq hikməti ilə zənginləşdirmişdir. Folklor üslubu uşaq ədəbiyyatının əsas səciyyəsini müəyyənləşdirən bir faktordur və müxtəlif yönlərdən araşdırılmalıdır.

Digər tərəfdən folklor və uşaq ədəbiyyatı əlaqəsinin araşdırılması keçmişdən gələcəyə doğru inkişafın davamlılığını, yəni milli mənəvi dəyərlərin keçmiş nəsildən gələcək nəslə ötürülməsi baxımından aktualdır.

Uşaq ədəbiyyatı və folklor əlaqəsində ən populyar janr olan ədəbi nağıllar, yazılı ədəbiyyatda yaradılan laylalar (ədəbi laylalar) dünya uşaq ədəbiyyatının tədqiqi təcrübəsində mühüm yer tutaraq çoxsaylı tədqiqatların əsas predmeti olmuşdur. Bununla yanaşı, ədəbi nağılların sırf uşaqlar üçün yaradılan nümunələrinin olması ədəbi nağıl mövzusunun gələcəkdə ayrıca dissertasiya şəklində araşdırılmasını zəruri edir. Dünya folklorşünaslığında uşaq ədəbiyyatı çevrəsinə məxsus ədəbi nağıllarla bağlı xeyli sayda dissertasiyalar yazıldığı, monoqrafiyalar çap edildiyi halda Azərbaycanda bu sahədə tədqiqatlar olduqca məhduddur.

XIX əsrdən başlanan və XX əsrin əvvəllərində sürətli inkişaf edən uşaq ədəbiyyatının, həmçinin uşaq nəsrinin poetik strukturu, mənimsədiyi obrazların, bədii təsvir və ifadə vasitələrinin əsası uşaq folkloruna, əsasən, uşaq nəğmələrinə dayanır. Bu məsələnin aydınlaşdırılması üçün uşaq folklorunun uşaq şeirinin formalaşmasına geniş

dairədə təsir edən janrlarının (uşaq nəğmələri, laylalar və s.) obrazlar sisteminin, ilkin mənşəyinin, yaranma mexanizminin araşdırılması vacibdir. Uşaq ədəbiyyatı və uşaq folkloru ayrı-ayrı qanunları olan sözlü mədəniyyət layına mənsub olsalar da, bir sistemin, yəni uşaq tərbiyəsinin iki tərkib hissəsidir. Bu mənada uşaq ədəbiyyatı özündə həm şifahi, həm də yazılı ənənəni birləşdirir.

Azərbaycan ədəbiyyatı və folklor, habelə Azərbaycan uşaq ədəbiyyatı və uşaq folkloru qarşılıqlı əlaqəsinin aşkarlanması istiqamətində nəzəri bazanın azlığı mövzunun araşdırılmasında kifayət qədər çətinlik yaradır.

Uşaq ədəbiyyatı və uşaq folklorunun spesifikasından dolayı folklor və ədəbiyyat əlaqəsinin uşaq ədəbiyyatı və folklor aspektindəki təzahürü, şübhəsiz ki, müəyyən fərqlilik ehtiva edir. Bu fərqlilik uşaq ədəbiyyatının funksiyaları, yaranma mexanizmi, janr kriteriyaları, dil və üslub xüsusiyyətləri, həmçinin hər bir ölkənin tarixi inkişafına uyğun olaraq özünü büruzə verir. Məsələn, folklor və uşaq ədəbiyyatı əlaqəsinin spesifik xüsusiyyəti uşağın yaş mərhələlərinə istiqamətlənməsi ilə səciyyələnir və böyüklərin ədəbiyyatından fərqlənir.

XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının janr sisteminin formalaşmasına folklor nümunələrinin təsiri çox böyük olmuşdur. Ümumiyyətlə, uşaq ədəbiyyatı məfhumunu folklor nümunələri olmadan təsəvvür etmək mümkün deyil. Həmçinin XX əsrin əvvəllərində də folklor nümunələrinin bədii mətnlərin yaradılmasında istifadəsi bir məqsəd olaraq qarşıya qoyulmuşdu.

Prof. T.Cavadov uşaq poeziyasının, prof. Y.Babayev isə uşaq nəsrinin tədqiqinə həsr olunan dissertasiya və monoqrafiyalarında Azərbaycan uşaq ədəbiyyatının təşəkkülündən bəhs edəndə, yazılı ədəbiyyat və folklor  əlaqəsi barədə maraqlı fikirlər irəli sürmüşlər. Ayrı-ayrı yazıçı və şairlərin yaradıcılığına həsr edilmiş tədqiqat-larda, məqalə və dərsliklərdə uşaq ədəbiyyatı və folklor əlaqəsinə toxunulmuş, əsasən, birxətli planda folklor nümunələrinin təsiri ilə formalaşan nümunələrlə bağlı müəyyən siyahılaşdırmalar aparıl-

mışdır.[1] Bu tədqiqatları birləşdirən ümumi cəhət faktların fraqmentarlığıdır. Ümumi şəkildə XX əsrin əvvəli (1900-1925) Azərbaycan uşaq ədəbiyyatında folklor üslubunun aşkarlanması istiqamətində sistemli tədqiqat işi aparılmamışdır.

Uşaq ədəbiyyatı özünün əsas qaynağı olan folklorla müqayisəli şəkildə bir çox qabaqcıl ölkələrin elm dairələrində araşdırmalara cəlb edilmişdir. Məsələn, rus folklorşünaslığında mənzərə tamamilə başqa istiqamətdə özünü göstərir. Uşaq ədəbiyyatının populyar və oxunaqlı janrları folklorun ədəbiyyata təsiri aspektində deyil, qarşılıqlı təsir və bir-birini yeniləşdirmə aspektində tədqiqata cəlb edilmişdir. Ən geniş yayılmış janr olan ədəbi nağılların tədqiqi istiqamətində istər Rusiya, istərsə də Avropa folklorşünaslığında bir sıra araşdırmalar aparılmış və dəyərli əsərlər yazılmışdır.

Həmçinin uşaq düşüncəsi, onun ilkin qaynaqları, bədii nümunələrdə əksi, transformasiyası kimi məsələlərlə bağlı dünya folklorşünaslığında zəngin elmi təcrübə toplanmışdır. Bu tədqiqatların nəzəri ehtiyatlarından istifadə etməklə XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının folklor üslubunu müəyyənləşdirmək mümkündür.

Azərbaycan uşaq ədəbiyyatının folklor üslubunu öyrənmək onun xəlqi əsaslarını, milli-mənəvi qaynaqlarını öyrənmək deməkdir. Uşaqlarımıza təqdim etdiyimiz ədəbiyyatın xalqımızın dili, ruhu və mənəvi dünyası ilə bağlılığını öyrənmək mövzumuzun aktuallığını təsəvvür etməyə imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın tədqiq obyektinə XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının

---

[1] Babayev Y. Azərbaycan uşaq nəsrinin inkişafı tarixindən (1905-1920-ci illər) / Y.Babayev. Namizədlik dissertasiyasının avtoreferatı. – Bakı, – 1989. Bəydili (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya (monoqrafiya). / C.Bəydilli. – Bakı: Mütərcim, – 2007, – 272 s.; Cavadov T. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan uşaq poeziyası / T.Cavadov. Namizədlik dissertasiyası. – Bakı, – 1988; Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı / F.Əsgərli. – Bakı: ADPU-nun nəşriyyatı, – 2009, – 435 s.; Fərhadov F., Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi / F.Fərhadov., A. Hacıyev. – Bakı: APİ-nin nəşriyyatı, – 1986.

müxtəlif müəlliflər tərəfindən yaradılmış nümunələri aiddir. Tədqiqatda XX əsrin əvvəlində nəşr edilən müxtəlif mətbuat orqanlarında çap edilən bədii nümunələrə, ayrı-ayrı dərsliklərin ilkin nəşrlərinə istinad edilmişdir.

Tədqiqatın predmetini isə XX əsrin əvvəli Azərbaycan uşaq ədəbiyyatının formalaşmasına təsir edən folklor üslubu təşkil edir. Uşaq folkloru və uşaq ədəbiyyatı əlaqəli şəkildə tədqiqata cəlb edilmiş və onların bir-birinə təsir və qarşılıqlı inkişafı məsələsi bədii nümunələr əsasında izlənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu araşdırmanın əsas məqsədi XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında folklorun təsiri məsələsini öyrənmək, habelə uşaq ədəbiyyatında yaratdığı janr dəyişikliyi-modifikasiyaları və üslub xüsusiyyətlərini aşkar etməkdir. Bu məqsədi gerçəkləşdirmək üçün aşağıdakı məsələlərin həlli əsas vəzifə kimi ön plana çəkilmişdir:

– Uşaq folkloru və uşaq ədəbiyyatı anlayışlarının əhatə dairəsini, çərçivəsini müəyyən etmək;

– Uşaq ədəbiyyatında folklor-ədəbiyyat əlaqəsinin tipologiyasını müəyyən etmək, yəni ümumi xüsusiyyətlərə görə ayırmaq;

– Ədəbi nağılların formalaşma prosesini izləməklə eyni zamanda şifahi mətn olaraq səciyyələnən nağıl janrının inkişaf mərhələlərini izləmək, habelə nağılların uşaq ədəbiyyatının janr sistemini formalaşmasına təsirini aşkarlamaq;

– Folklor-ədəbiyyat qarşılıqlı əlaqə və təsirinin uşaq ədəbiyyatı və folklor, həmçinin uşaq ədəbiyyatı və uşaq folkloru aspektində müşahidə etmək;

– Uşaq nəğmələrinin uşaq poeziyasının poetik sistemini formalaşdırması mexanizmini izləmək;

– Mifoloji obraz və motivlərin uşaq ədəbiyyatındakı obrazların formalaşmasındakı rolunu müəyyən etmək;

– Uşaq mifoloji düşüncəsinin ilkin qaynaqlarını və onun uşaq ədəbiyyatındakı təzahürünü üzə çıxarmaq və s.

**Tədqiqatın metodları.** Dissertasiyanın nəzəri-metodoloji əsasını tanınmış folklorşünas və ədəbiyyatşünasların şifahi xalq

ədəbiyyatı, uşaq ədəbiyyatı, uşaq folkloru ilə bağlı elmi-nəzəri fikirləri təşkil edir.

Dissertasiyada tarixi-müqayisəli və müqayisəli-tipoloji tədqiqat metodları tətbiq olunmuşdur. Nəzəri-metodoloji baza kimi folklor və yazılı ədəbiyyat əlaqəsinin öyrənilməsinin rus, türk və dünya elmindəki son yeniliklərinə istinad edilmişdir. Dünya folklorşünaslığının, xüsusən, rus folklorşünaslığının uşaq ədəbiyyatı ilə uşaq folklorunun qarşılıqlı əlaqəsinin öyrənilməsinə dair çoxsaylı tədqiqatlarının təcrübəsi bu dissertasiyanın nəzəri-metodoloji əsasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1.Uşaq ədəbiyyatının əsas qaynağı folklordur. Uşaq ədəbiyyatının əsas səciyyəsi birbaşa folklorun təsiri ilə formalaşmasıdır.

2. Uşaq ədəbiyyatının janr sistemində ədəbi nağıl formaları mühüm yer tutur.

3. Folklor və uşaq ədəbiyyatı əlaqəsinin spesifik xüsusiyyəti uşağın yaş mərhələlərinə istiqamətlənməsi ilə səciyyələnir və ümumi olaraq yazılı ədəbiyyatdan seçilir.

4. Kumulyativ strukturu uşaq ədəbiyyatının və uşaq folklorunun başlıca ortaq cəhəti olaraq qiymətləndirmək mümkündür. Kumulyativ struktur uşaq folkloruna xas üslubi cəhətdir ki, oyun elementinin gücləndirilməsində, oyun tərzinin yaradılmasında vacib rol oynayır.

5. Şifahi xalq ədəbiyyatının janrları sırasında uşaq ədəbiyyatının janr sisteminin formalaşmasında nağıl janrı kəmiyyət baxımından əsas rol oynamış olsa da, bir sıra lirik folklor janrları da uşaq şeirinin formalaşmasında önəmli rol oynamışdır. Buraya yazılı uşaq ədəbiyyatında yaradılan layla, düzgü və tapmaca nümunələrini də aid etmək olar. Həmin janrlar da nağıllar kimi uşaq ədəbiyyatının janr sisteminin qaynaqları və üslubi əsası olaraq çıxış etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliklərini şərtləndirən başlıca amil XX əsrin əvvəlləri (1900-1925) Azərbaycan uşaq ədəbiyyatında folklor üslubunun müasir elmi-nəzəri aspektdən sistemli şəkildə ilk dəfə öyrənilməsindən ibarətdir.

Tədqiqatda əldə olunmuş elmi yenilikləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Uşaq ədəbiyyatı ilə folklor əlaqəsində folklor üslubunu yaradan qaynaqlar müəyyən edilmişdir;

– Uşaq ədəbiyyatının janr sisteminə daxil olan ədəbi nağıllar folklor üslubu yaradan qaynaqlardan biri kimi tədqiq edilmişdir;

– Uşaq ədəbiyyatı və uşaq folklorunun qarşılıqlı təsir və inkişafı izlənmişdir;

– Uşaq poeziyasının strukturunun formalaşmasında uşaq folklorunun bilavasitə rolu araşdırılaraq bəzi janrların strukturunun uşaq folkloruna əsaslandığı, yəni sual-cavab və dialoq modeli şəklində olduğu müəyyənləşdirilmişdir;

– Uşaq mifoloji təfəkkürü və uşaq ədəbiyyatı əlaqəsinin təhlili ilə uşaq ədəbiyyatının didaktik funksiyalarının ifadəsində qorxu motivinin vacib yerdə durduğu izah edilmişdir. Mifoloji obrazların qorxu və vahimə yaratma aspekti uşaq ədəbiyyatı üçün didaktik məqsədin bədii əsərdə ifadəsində əsas rola malik olduğu aydınlaşdırılmışdır.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə olunmuş nəticələrdən ədəbiyyat və folklor, uşaq ədəbiyyatı və uşaq folkloru problemlərinin tədqiqində nəzəri mənbə kimi istifadə etmək olar. Tədqiqat işindən folklorşünaslıq və uşaq ədəbiyyatının tədrisində yardımçı vəsait kimi istifadə mümkündür. Bununla yanaşı, orta məktəb dərsliklərində bir sıra problemlərin aradan qaldırılmasında – uşaq qiraət materialının seçimində mühüm əhəmiyyət daşıya bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş tezis, məqalə və konfrans məruzələrində əksini tapmışdır.

Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının 24 noyabr 2014-cü il tarixli (protokol №7) və Filologiya Problemləri üzrə Elmi Şuranın 16 noyabr 2017-ci il tarixli (protokol №9) iclas protokollarının qərarı ilə təsdiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi Giriş (12461 işarə), I fəsil (87165 işarə), II fəsil (80510 işarə), III fəsil (34199 işarə), Nəticə (6148 işarə) və ədəbiyyat siyahısından ibarət olan ümumi həcmi 220488 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi aydınlaşdırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar qeyd edilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiyanın **"XX əsrin əvvəlləri uşaq ədəbiyyatının tədqiqi məsələləri və folklorla əlaqələri"** adlanan birinci fəsil dörd paraqrafdan ibarətdir. Birinci fəslin ilk paraqrafı ***"XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının tədqiqi məsələləri"*** adlanır. Bu paraqrafda XX əsrin əvvəlləri Azərbaycan xalqının ictimai-mədəni həyatında xüsusi bir yüksəliş dövrü kimi diqqətdə saxlanaraq cəmiyyətin mədəni həyatının ən vacib sahəsi olan ədəbi fəaliyyət araşdırılıb.

Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsini üç dövrə ayıra bilərik:

1. XX əsrin əvvəlləri.
2. Sovet dövrü.
3. Müstəqillik dövrü.

Hər üç dövrə aid olan və bir-biri ilə əlaqəli olan iki məsələ diqqəti çəkir. Bunlardan biri uşaq ədəbiyyatının ümumi səciyyəsi ilə bağlıdır, digəri isə uşaq ədəbiyyatının yaranması ilə bağlıdır.

XX əsrin əvvəllərində uşaq ədəbiyyatı ilə bağlı tədqiq və nəşr işlərinə rast gəlmək mümkündür. Həmin dövrün mətbuatından məlum olur ki, uşaq ədəbiyyatına da o dövrdə diqqət yetirilib. Firudin bəy

Köçərlinin məşhur “Balalara hədiyyə” kitabı 1912-ci ildə nəşr edilib. Ə.Əkbərov 1912-ci ildə “İqbal” qəzetində “Ədəbiyyata dair” adlı məqaləsində uşaq ədəbiyyatından bəhs edib. M.Rzaquluzadə 1926-cı ildə “Yeni məktəb” jurnalında “Cocuk ədəbiyyatı” adlı məqalə yazıb. M.Hüseyn 1927-ci ildə “Yeni məktəb” jurnalında “Uşaq ədəbiyyatı haqqında” adlı məqalə ilə çıxış edib[2].

Sovet dövründə R.Allahverdiyev “Azərbaycan uşaq ədəbiyyatında tərbiyə məsələləri (1905-1920-ci illər)” adlı namizədlik dissertasiyası yazıb[3]. X.Məmmədov  “XIX əsr Azərbaycan uşaq ədəbiyyatı” kitabında tədqiq etdiyi dövrün ədəbiyyatında uşaqlar üçün tərbiyəvi əhəmiyyəti olan nümunələri uşaq ədəbiyyatı kimi səciyyələndirib. Bu istiqamət ən yeni tədqiqatlarda və toplularda da müşahidə olunmaqdadır. Son tədqiqatların gəldiyi qənaət belədir ki, uşaq ədəbiyyatının təşəkkülü 1870-ci illərdən başlayır və onun ilk nümunələri S.Ə.Şirvani tərəfindən yazılıb[4].

XX əsrin əvvəllərində “Rəhbər”, “Məktəb”, “Dəbistan” kimi uşaq jurnalları nəşr olunub. XX əsrin əvvəlləri uşaq ədəbiyyatının tarixində önəmli bir dövrdür. Bu dövrdə Həsənəliağa Qaradaği, Səfərəlibəy Vəlibəyov, Əhməd bəy Cavanşir, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Soltan Məcid Qənizadə, Ələkbər Sabir Tahirzadə, Abbas Səhhət Mehdizadə, Süleyman Sani Axundov, Abdulla Şaiq Talıbzadə kimi görkəmli şəxsiyyətlərin fəaliyyət göstərdiyi bir dövrdür. Bu görkəmli şəxsiyyətlərin hər birinin uşaq ədəbiyyatının inkişafı  sahəsində müəyyən xidmətləri olmuşdur. Belə şəxsiyyətlərin fəaliyyəti sayəsində həmin dövrdə uşaq jurnalları nəşr olunmuş, uşaqlar üçün dərslik yazılmış, uşaqlar üçün ədəbi əsərlər yaradılmışdır[5]. Ə.Əkbərov

---

[2] Köçərli F. Balalara hədiyyə. Bakı: Şərq-Qərb, 2013, 172 s. 19 illüstrasiya; Əkbərov Ə. Ədəbiyyata dair. İqbal qəzeti, 1912, №16.; Rzaquluzadə M. Cocuk ədəbiyyatı məsələsi, “Yeni məktəb”, 1926, №3.; Hüseyn  M. Uşaq ədəbiyyatı haqqında,  “Yeni məktəb”, 1927, №2-3

[3] Аллахвердиев Р. Вопросы воспитания в Азербайджанской детской литературе. Авт.канд. диссертации, Баку, 1964

[4] Rəsulova S. Azərbaycan uşaq ədəbiyyatının təşəkkül problemi və ona elmi-nəzəri baxış. Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2020, №2, (264), s. 126-139).

[5] Mustafayeva X. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Elm, 2011, 292 s. 68

M.T.Sidqini, M.Rzaquluzadə Abdulla Şaiqi uşaq ədəbiyyatının banisi hesab etmişlər[6].

Azərbaycanda uşaq ədəbiyyatı məsələsi beynəlxalq konfranslarda da qoyulmuş və geniş müzakirələrə cəlb edilmişdir. 2008-ci ilin 13-15 noyabr tarixlərində "Türk xalqları ədəbiyyatı (II) beynəlxalq uşaq ədəbiyyatı konqresi" keçirilmişdir. Konfransda uşaq ədəbiyyatının müxtəlif aspektlərinə toxunan çoxlu məruzələr edilmişdir. Bu konfrans materiallarında nəşr edilmiş F.Seyidovun "Türk xalqlarının uşaq ədəbiyyatının bəzi məsələləri" başlıqlı məqalədə XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatına da toxunulur. Məqalədə F.Köçərlinin "Balalara hədiyyə" əsərinin girişində verilən belə bir fikir xüsusi olaraq diqqətə çatdırılır:" Keçmişdə şan və qüvvət sahibi olan türk milləti öz məişətinə, adət ənənəsinə dair yaratdığı hekayə, nağıl, hikmətamiz atalar sözü, incə mənalı tapmacalar, düzgü və yanıltmacları yaddan çıxarır və unudurlar". Bu məqalədə maraqlı məlumatlardan biri də 1906-1907-ci illərdə Azərbaycan türklərinin qurultayında uşaq ədəbiyyatının vacib bir məsələ olmasından bəhs edilməsidir[7]. 1906-cı ildə təsis edilmiş "Rəhbər" jurnalı "Dəbistan" və "Məktəb" jurnallarından fərqli olaraq daha çox uşaq ədəbiyyatı nümunəsi nəşr edib.

S.Rəsulova "Azərbaycan uşaq ədəbiyyatının maarifçi-realist mərhələsi" adlı monoqrafiyasında kifayət qədər dolğun, elmi, məntiqli və inandırıcı şəkildə əsaslandırmış, şərh etmişdir. Monoqrafiya XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatının tədqiqinə həsr edilmişdir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Azərbaycan Yazıçılar Birliyinin 2015-ci ildə "Uşaq ədəbiyyatının vəziyyəti və vəzifələri" mövzusunda keçirdiyi yaradıcılıq müşavirəsi ədəbiyyatşü-

---

[6] Rəsulova S. Azərbaycan uşaq ədəbiyyatının təşəkkül problemi və ona elmi-nəzəri baxış // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2020, №2, (264), s. 126-139

[7] Seyidov F. Türk xalqlarının uşaq ədəbiyyatının bəzi məsələləri / Türk xalqları ədəbiyyatı (II) beynəlxalq uşaq ədəbiyyatı konqresi. Bakı: Şərq-Qərb, 2010, s.76-79

naslıq elminin diqqətinin bu zəruri sahəyə yönəltmək baxımından müəyyən bir dönüşə səbəb olmuşdur.

Dissertasiyanın birinci fəslinin ***"Uşaq ədəbiyyatının üslubi səciyyəsi"*** adlanan ikinci paraqrafında göstərilir ki, ədəbiyyatla müqayisədə uşaq ədəbiyyatının formalaşması daha yaxın dövrün ədəbi prosesindən qaynaqlanır, habelə uşaq ədəbiyyatının əsasını təşkil edən uşaq folkloru da uzun müddət-XX əsrin əvvəllərinə qədər dünya folklorşünaslığında xüsusiləşmiş elm sahəsi kimi öyrənilmirdi. Uşaq ədəbiyyatını üslubi baxımdan səciyyələndirən əsas qaynaq folklordur. Folklorun hazır qəlibləri, obraz və motivləri uşaq ədəbiyyatında geniş şəkildə istifadə olunur və bu baxımdan üslubi səciyyəsini də öz qaynağından almış olur. S.Loyter belə fikir irəli sürür ki, "*Mahiyyətcə, uşaq folklorunda növbəti ifaçıya çevrilən dinləyici yoxdur. Yalnız uşaq nağılları bu baxımdan istisnalıq təşkil edir*"[8]. Prof. Y.Babayevin uşaq ədəbiyyatı ilə bağlı irəli sürdüyü fikirlər xüsusi aktuallıq kəsb edir: *"Uşaq ədəbiyyatı geniş mənada ədəbiyyatın "müstəqil hüquq və qanunları" olan, spesifik əlamətləri ilə fərqlənən, sistemli inkişaf yoluna malik müstəqil qolu, ayrıca bir sahəsidir"*[9].

Uşaq ədəbiyyatı sahəsində xüsusi xidməti olan prof. R.Yusifoğlu yazır: "*Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Yerin altını da, üstünü də bilən müasir uşaq həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaqların maraq selini ləngitmək, onu lazımi məcraya yönəltmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir"*[10].

Uşaq ədəbiyyatının formalaşmasına uşaq folklorunun da müəyyən təsirləri olmuşdur. Uşaq ədəbiyyatının üslubi səciyyəsini müəyyənləşdirən folklorun uşaq ədəbiyyatı və uşaq folkloru kontekstlərində

---

[8] Лойтер С.М. Русская детская литература XX века и детский фольклор: проблемы взаимодействия / С.М.Лойтер. [Электронный ресурс] Дис. д-ра филологические науки, Петрозаводск: 2002, s.26

[9] Babayev Y. Azərbaycan uşaq ədəbiyyatının təşəkkül problemi və ilkin inkişaf mərhələsinin əsas kanalları. II Beynəlxalq türk xalqları uşaq ədəbiyyatı konqresi / Qafqaz universiteti, Bakı: 2012, 11-12 oktyabr, s.77

[10] Yusifoğlu R. Uşaq ədəbiyyatı. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik. Bakı: Şirvannəşr, 2006, s.3

əlaqələrinin müxtəlif aspektlərdən araşdırılması Azərbaycan elminin qarşısında duran aktual problemlərdən biri kimi gələcəkdə də diqqətdə saxlanılmalıdır.

Birinci fəslin ***"Uşaq ədəbiyyatında folklorizmin tipoloji xüsusiyyətləri"*** adlanan üçüncü paraqrafında tipoloji elementlər diqqətdə saxlanılır. Təhlildən aydın olur ki, uşaq ədəbiyyatının ümumi ədəbiyyatdan fərqlənən, birbaşa folklor təsiri nəticəsində formalaşan janr sistemində ədəbi nağıl formaları mühüm yer tutur və dünya uşaq ədəbiyyatının yarandığı əsrdən başlayaraq müasir dövrə qədər ən populyar və məhsuldar janrı kimi öz mövqeyini qoruyur.

Uşaq ədəbiyyatı uşağın yaş dövrünə istiqamətlənməsi və qabiliyyətinin nəzərə alınması, onların həyat təcrübəsi, bilikləri, idraki və psixoloji xüsusiyyətləri ilə şərtlənir.

Müəllim Ağa Əli Qasımovun "Məktəb" jurnalının 1912-ci il 4-cü nömrəsində "Balaca hekayə" (bədii nümunə adsızdır) silsiləsi adı altında çap edilən ədəbi nağılının məzmunundan aydın olur ki, burada nağıl motivlərindən geniş istifadə olunub: "*Qara qul evinə qayıtdıqda nə gördü: ocaq üstündə bir böyük qazan, süfrə döşənib və cürbəcür zərif xörəklər düzülmüşdü"*[11].

XX əsrin əvvəlində "Uşaq gözlüyü" (Abdulla Şaiq), "Birinci il" (Mahmud bəy Mahmudbəyov), "Bəsirətül-ətfal", "Uşaq bağçası" (Rəşid bəy Əfəndizadə) və s. dərslik səhifələrində çoxlu sayda bir epizoddan ibarət olan hekayələrə, kiçik uşaq şeirlərinə rast gəlinirdi ki, belə nümunələr müəyyən aforizm, atalar sözü və məsəl, idiomlar əsasında qurulur və ilkin əxlaq normaları ilə uşaqları tanış etmək məqsədinə xidmət edirdi.

Birinci fəslin ***"Folklor və yazılı ədəbiyyat arasında əlaqələrin müxtəlif aspektləri"*** adlı paraqrafında uşaq ədəbiyyatı ilə folklorun arasındakı əlaqələrin formaları araşdırılıb. Ədəbiyyat və folklor sözlü mədəniyyətin iki tərkib hissəsi olaraq daima bir-birinin inkişafını stimullaşdıraraq qarşılıqlı təsir, yeniləşmə prosesində olmuş və bu proses zamanın inkişaf axarına uyğun olaraq müxtəlif ədəbi mühit və

---

[11] "Məktəb" jurnalı, 1912, №4, s.52-53.

dövrlərdə ayrı-ayrı xüsusiyyətlərin ön mövqeyə çıxması ilə səciyyələnmişdir.

Burada müşahidə olunan əlaqə formalarında bir ədəbi laylaların folklor əsasında yaranmasıdır. XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatında ana nəğmələrinin poetikasına müraciətlə bir sıra poetik nümunələr-ədəbi laylalar yaradılmışdı: R.Əfəndiyevin "Ananın lay-lay sədası", A.Şaiqin "Layla", Mir Seyfəddin Seyidov Şirvaninin "Ninni mahnısı", Arifənin "Beşikbaşı", Rəbiənin "Ninni" və s.

R Əfəndizadənin şeirinə nəzər salaq:

Ay balam, sən neyçün yatmayırsan,
Hər zaman ah edib, ağlayırsan?
Yuxulamış gün, batıb rahət olmuş.
Ol zaman gördülər gün batıbdır.
Quşlar öz mənzilində yatıbdır.
Həm toyuq, həm cücə, həm xoruzlar[12]

Müxtəlif folklor janrlarından uşaq poeziyasında istifadə olunur. Uşaq folklorunun bir sıra janrlarının poetik strukturu ədəbiyyatla qarşılıqlı inkişaf baxımından daha məhsuldardır. Uşaq nəğmələrindən düzgülər bu əlaqənin yaşanması baxımından daha məhsuldardır ki, bu məhsuldarlığın başlıca səbəbi düzgülərin poetik struktur özəllikləri ilə şərtlənir.

"Bənövşə" adlı şeir nümunəsi Rəşid bəy Əfəndiyevin 2006-cı ildə təkrar çap edilən seçilmiş əsərlərindən götürülmüşdür. Həmin şeirin başqa bir variantına Azərbaycan folkloru antologiyasında rast gəldik:

Qış çıxar açar yazı bənövşə,
Eyliyər bizə nazı bənövşə,
Hər gülün sərəfrazı bənövşə,
Aman, ay gülüm, bəsdərəm səni,
Dəstə bağliyif iylərəm səni[13]

---

[12] Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. XX cilddə. I cild, Bakı: Elm, 1982, s.74

[13] Azərbaycan folkloru antologiyası.VI kitab. Şəki folkloru. II cild. Bakı: 2002, s.23

XX əsrin əvvəlində Abdulla Şaiq, Abbas Səhhət, Rəşid bəy Əfəndizadə, Süleyman Sani Axundov kimi ədiblərin yaradıcılığında folklordan istifadə mexanizminin dəyişdiyi müşahidə edilir ki, müxtəlif səbəblərdən qaynaqlanır.

Uşaq ədəbiyyatının folklorla əlaqəsində üslubi səciyyənin formalaşması ədəbi nağılların üzərindəki müşahidələrdən aydın görünür. Azərbaycan uşaq ədəbiyyatının yaranması və inkişafının həlledici dönəmi olan XX əsrin əvvəlində uşaq qiraət materialı tələbatının tez bir zamanda ödənilməsi məqsədi ilə nağıl mövzusuna müraciət kütləvi xarakter almışdı. Dünya uşaq ədəbiyyatı üçün səciyyəvi inkişaf, formalaşma mexanizminin əsasını təşkil edən nağıl poetik qəlibinin uşaq poeziyası və nəsrini öz təsiri altına alması, yəni nağılların uşaq ədəbiyyatının janr sistemini formalaşdırması prosesi Azərbaycan uşaq ədəbiyyatında da aşkar bir şəkildə nəzərə çarpır.

Folklorla əlaqə nəticəsində yaranan ədəbi nümunələr uşaq ədəbiyyatı janrı mövqeyini qazanırlar. *"Nağılların janr sisteminə təsiri müxtəlif janr modifikasiyalarına - nağıl-hekayə, nağıl poema, nağıl-novella və s. gətirib çıxarır"*[14]. XX əsrin əvvəllərində müəllif özünə məlum olan xalq nağılı, əfsanə və rəvayəti yazıya alaraq dəyişdirirdi: "*Beləliklə əsərdə xalq dili ilə tərtibçinin dili qovuşurdu".*[15]

Ədəbi nağıllar sonrakı inkişaf dövründə orijinal uşaq nəsri nümunələrinin formalaşmasına təkan vermişdir. Azərbaycan uşaq ədəbiyyatının bilavasitə uşaq nəsrinin formalaşması da nağıllarla bağıdır. XX əsrin əvvəli uşaq nəsri məhz ədəbi nağıl nümunələri ilə formalaşmağa başlamışdır.

**"Uşaq ədəbiyyatında folklor üslubunun yaranması və formalaşmasında mifoloji obraz və motivlərin təsiri"** adlı ikinci fəsil dörd paraqrafdan ibarətdir. *"**Mifoloji obraz və motivlərin uşaq ədəbiyyatında işlənməsinin bədii-üslubi xüsusiyyətləri**"* adlanan birinci paraqrafda folklordan gələn obraz və motivlərin ədəbi mətn-

---

[14] Арзамасцева И.Н., Николева С.А. Детская литература. М., Академия, 2013, s.7

[15] Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992, s.75

dəki yeri və rolu araşdırılır[16]. Yaradıcı şəxs şifahi xalq örnəklərindən müxtəlif şəkildə, yəni folklor modeli, süjet, obraz, motiv və s. səviyyələrindən şüurlu şəkildə istifadə ilə estetik funksiyaya xidmət edən ədəbi nümunə yaradır. Həmçinin qeyri-şüuri şəkildə, yaradıcı şəxsin iradəsindən asılı olmayaraq aid olduğu etnik qrupun bir fərdi olaraq folklor düşüncəsi onun nitqində daşlaşmış şəkildə, alt qatda, hər hansı sözdə ifadədə özünü göstərə bilir.

XIX əsrin sonu XX əsrin əvvəllərində meydana gələn Azərbaycan uşaq ədəbiyyatının janr sisteminin formalaşmasında mühüm rol oynayırdı. Folklor obraz və motivlərinin uşaq ədəbiyyatına təsirini Qrimm qardaşlarının nağılları toplaması, nəşri ilə Avropa ədəbiyyatına təsiri nümunəsi də mövcuddur. Şifahi xalq ədəbiyyatının böyük bir layını təşkil edən nağıl mətnləri, xüsusən də heyvanlar haqqında olan nağılların uşaq poeziya və nəsri üçün əsas və ən birinci qaynaq rolunda çıxış edirdi. Mifik ünsürlərin daşıyıcısı olaraq belə nümunələr kifayət qədər mifoloji obraz və motivlərlə zəngindir və mifopoetik təfəkkürü özündə əks etdirir.

Bəllidir ki, heyvanlar haqqında olan nağıllarda obrazlar ilkin mifik şüura dayanan binar oppozisiyalara (əksliklərə) müvafiq 2 yerə: xeyir qüvvələri təmsil edənlərə və şər qüvvələri təmsil edənlərə bölünür. Bununla belə, sadəlövhlüklə, hiyləgərlik, zalımlıqla xoşniyyətlik və s. kimi insani xüsusiyyətlər heyvanların üzərinə köçürülür və nağılların süjet xəttinin əsasını həmin qüvvələr arasındakı mübarizə təşkil edir.

Nağıl mətnlərində Tülkü hiyləgərliyin simvolu, Toyuq, Xoruz isə sadəlövhlüyü təmsil edib hiyləgərlərin tələsinə düşən tərəfin təmsilçisidir. Heyvanlar haqqında nağılların obraz və motivləri uşaq ədəbiyyatı üçün hazır, həmçinin məhsuldar bir qaynaqdır. Həmin obrazlar uşaq ədəbiyyatı nümunələrində isə həmin ədəbiyyatın didaktik spesifikasından dolayı zəhmətsevərlik, tənbəllik, doğruluq,

---

[16] Məmmədova, G. XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatında qorxu motivi / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları. – Bakı: Mütərcim, – 2019, - s. 321-323

sədaqətsizlik, zalımlıq, mərhəmətlilik, saflıq, hiyləgərlik kimi sifətlərin dərk olunmasında və uşaqların şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır. Abdulla Şaiqin mənzum nağıllarından olan "Tülkü və Xoruz"da tülkü obrazı folklor ənənəsində daşıdığı xarakteri ilə hiyləgər, xoruz isə sadəlövh insanların təmsilçisi olaraq təsvir edilir.

İkinci fəslin ***"Od qoruyucularının funksional semantikası"*** adlı ikinci paraqrafında odla bağlı obrazlardan bəhs olunur. Od qoruyucusu öz mahiyyəti etibarilə məkanla əlaqəli bir funksiyadır. Çünki folklorda od və ocaq öz məkanını ifadə etməkdədir. Bu baxımdan od qoruyucuları da yurdu, yuvanı qorumuş olurlar. Odu qorumağın folklordakı funksional semantikası belədir. Bunlar müxtəlif obrazlar vasitəsilə reallaşır. Həmin qaynaqlar üzərində yaranan uşaq ədəbiyyatı nümunələrində də ilkin məna davam edir və əsərdə yurdsevərlik tərbiyəsi üçün zəmin formalaşdırır.

Mənşəyi ilə oda bağlanan folklor obrazlarından biri Cırtdan obrazıdır. Cırtdan obrazı ilə bağlı olan nağıllar silsiləsi məhz uşaq folklorunun əsas janrlarından olan uşaq nağılları sırasına aid edilir.

İkinci fəslin ***"Qədim ritual elementlərinin uşaq ədəbiyyatı obrazlarının formalaşmasında rolu"*** adlı üçüncü paraqrafında arxaik ritual elementlərinin uşaq ədəbiyyatında istifadə olunmasından bəhs edilir. Burada arxaik ritual kimi inisiasiya xüsusi olaraq seçilmişdir.

İkinci fəslin ***"Uşaq mifologiyasının qaynaqları"*** adlı dördüncü paraqrafında uşaq düşüncəsinin mifoloji təsəvvürlərlə bağlı aspekti diqqətdə saxlanılmışdır.

Müasir dövrdə dünya folklorşünaslığında uşaq folklorunun tədqiqi yeni bir inkişaf xətti ilə irəliləyir. Dünya elmində uşaq mifologiyası anlayışının meydana gəlməsi yaxın zamanın folklorşünaslıq elminin nailiyyətlərindən qaynaqlanır. Uşaq mifologiyası məfhumu əhatə dairəsinə qorxu hekayələrini də alır. İngiltərə, ABŞ, Bolqarıstan, Polşa, Finlandiya kimi ölkələrdə uşaq qorxu hekayələri XX əsrin 50-60-cı illərindən etibarən yazıya alınaraq öyrənilmişdir. Uşaq ədəbiyyatında folklordan gələn qorxu motivi didaktik prinsip kimi götürülür. Çünki folklordakı qorxu öz təbiəti etibarilə uşaq

psixologiyasını zədələmir. Təsadüfi deyil ki, Süleyman Sani Axundov mövzusunu real həyat hadisələrindən aldığı uşaq hekayələrini "Qorxulu nağıllar" silsiləsi adı altında "Məktəb" jurnalında çap etdirmişdir.

**"Uşaq ədəbiyyatında kumulyasiya (zəncirvarilik prinsipi)"** adlı üçüncü fəsil iki paraqrafdan ibarətdir. Bu fəslin ***"Kumulyativlik prinsipinin uşaq ədəbiyyatının poetik strukturundakı səciyyəsi"*** adlanan birinci paraqrafında uşaq ədəbiyyatında folklor üslubunu gücləndirən poetik struktur araşdırılmışdır[17]. Təhlildən aydın olmuşdur ki, kumulyativlik prinsipi uşaq ədəbiyyatının poetik strukturunun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. XX əsrin əvvəllərində Azərbaycan uşaq nəsrinin janr sisteminin formalaşmasında nağıl janrı ön mövqedə olsa da, uşaq poeziyasının janr sisteminə təsir baxımından nəğmə mətnləri də az rol oynamırdı. Zəncirvarilik prinsipinə əsaslanan folklor mətnlərinin, xüsusən, düzgülərin forma və məzmun modellərindən istifadə ilə yazılı ədəbiyyatda yaradılan düzgü mətnləri, kumulyativ strukturlu ədəbi nağıllar, kumulyativ nağıllara xas olan ayrı-ayrı mifoloji elementlərdən istifadə ilə yaradılan bədii örnəklər uşaq ədəbiyyatının əhəmiyyətli bir hissəsini təşkil edir. Azərbaycan uşaq poeziyasının əbədi yaşarlılıq statusu qazanan "Uşaq və buz" şeiri yazılan zaman M.Ə.Sabir "Qarı" adlı uşaq nəğməsindən (düzgü) bəhrələnmişdir. Həmçinin Hacı Səlim Qasımzadənin "Buzsındıran" ədəbi nağılının, "Dəbistan" jurnalında çap edilən "Bir Qozun düşməsi" adlı ədəbi nağılın və s. da poetikasında kumulyativ səciyyəli mətnlərin strukturu qaynaq mövqeyini qoruyur.

Üçüncü fəslin ***"Uşaq nəğmələrinin dialoq və sual-cavab modelinin uşaq ədəbiyyatının poetik strukturundakı yeri"*** adlanan ikinci paraqrafında oyun və nəğmələrin forma xüsusiyyətləri araşdırılmışdır. XX əsrin əvvəlində uşaq poeziyası özünün yüksək inkişaf mərhələsinə daxil olur. Həmin dövrdə yazılan Abdulla Şaiqin

---

[17] Məmmədova, G. Uşaq ədəbiyyatında kumulyativlik və onun ritual-mifoloji əsasları // Dil və Ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, – Bakı: 2019, №3 (110), – s.279-282

məşhur "Uşaq və Dovşan" şeiri dialoq formalı poetik örnəkdir[18].

(I variant)

Uşaq və dovşan:

Dovşan, dovşan, a dovşan.
Qaçma dayan, a dovşan
Qaçma səni sevəndən,
Can kimi istəyəndən[19].

Uşaq nəğmələrinin zəncirvari struktura malik olan nümunələri uşaq ədəbiyyatının janr sisteminin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, uşaq ədəbiyyatının folklor üslubunu gücləndirmişdir.

Tədqiqatın **nəticələrini** aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

1. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixində bir çox yeniliklərin yarandığı bir dövr kimi səciyyələndirilə bilər. Azərbaycan uşaq ədəbiyyatının yaranması, formalaşması və təşəkkülündə bu dövrün xüsusi bir rolu olubdur.

2. Uşaq ədəbiyyatı səciyyəvi cəhətlərə malikdir və onun əsas qaynağı folklordur. Bununla yanaşı uşaq ədəbiyyatı və uşaq folkloru arasındakı əlaqə ədəbiyyat və folklor əlaqəsi ilə eyniyyət təşkil etmir.

3. Uşaq ədəbiyyatının qəliblərini folklor formalaşdırıb. Folklorsuz uşaq ədəbiyyatının yaranması mümkün deyildir.

4. Uşaq ədəbiyyatı və uşaq folklorunun səciyyəsi müəyyən fərqlilik nümayiş etdirir. Bu fərqlilik uşaq ədəbiyyatının funksiyaları, yaranma mexanizmi, janr ölçüləri, dil və üslub xüsusiyyətləri, həmçinin hər bir ölkənin uşaq ədəbiyyatının tarixi inkişafına uyğun olaraq özünü büruzə verir.

5. XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının folklor üslubunun başlıca xüsusiyyəti nağıl formasının uşaq poeziyası və nəsrində geniş yayıldığını göstərir.

---

[18] Məmmədova, G. Uşaq şeirinin folklor qaynaqları (Abdulla Şaiqin yaradıcılığı əsasında) // Bakı: Sivilizasiya jurnalı–2015, –№ 8, - s. 27-32.

[19] Şaiq Abdulla. Seçilmiş əsərləri /Abdulla Şaiq. 3 cilddə, III cild, Bakı: Avrasiya press, 2005, s. 27

6. Uşaq ədəbiyyatının ümumi ədəbiyyatdan fərqlənən, birbaşa folklor təsiri nəticəsində formalaşan janr sistemində ədəbi nağıl formaları mühüm yer tutur və dünya uşaq ədəbiyyatının yarandığı əsrdən başlayaraq müasir dövrə qədər ən populyar və məhsuldar janrı kimi öz mövqeyini qoruyur.

7. Folklor və uşaq ədəbiyyatı əlaqəsinin spesifik xüsusiyyəti uşağın yaş mərhələlərinə istiqamətlənməsi ilə səciyyələnir və böyük yaş qrupuna aid olan ədəbiyyatdan seçilir. Uşaq ədəbiyyatı nümunələrin yaradılması zamanı üstünlük təşkil edən janrlar sırasına nağıllar, atalar sözləri, tapmacalar, mərasim nəğmələri (uşaq folkloru repertuarına keçdikdən sonra), laylalar və uşaq nəğmələrini (əsasən kumulyativ səciyyəli və sual-cavab strukturlu mətnlər) məhsuldar janrlar kimi dəyərləndirmək mümkündür.

8.Folklor və uşaq ədəbiyyatı əlaqəsinin başlıca xüsusiyyətlərindən biri də oyun tərzinin, oyun mövqeyinin bədii mətndə ön plana çıxarılmasıdır. Oyun tərzinin, oyun effektinin əldə edilməsində uşaq ədəbiyyatı bir sıra fərqli üsullarla səciyyələnə bilir ki, bu üsullar üçün folklor əsas rol oynayır. Oyun tərzini bədii nümunədə əks etdirmək üçün folklor əsas qaynaqdır.

9.Uşaq ədəbiyyatında folklor nümunələrindən istifadə müəyyən pedaqoji istiqamətdə olur. Beləliklə, bədii ədəbiyyatda folklorun rolu estetik mahiyyət, funksiya qabığında uşağı inkişaf etdirir, əyləndirir, öyrədir, tərbiyə edir.

10.Uşağa həyat hadisələrini obrazlı şəkildə qavradılması kimi vəzifə daşıyan uşaq ədəbiyyatı üçün inisiasiya kimi vacib folklor qaynağı əlverişli rüşeymdir. Azərbaycan uşaq ədəbiyyatının, yeni formalaşma prosesində olan uşaq bədii nəsrinin XX əsr mənzərəsinə nəzər saldıqda obrazların öz məkanlarından uzaqlaşdırılması həyatın reallıqlarını uşaqlara anlatmaqda əsas vasitə rolunu oynayır.

11.Uşaq ədəbiyyatının obrazlar sisteminin formalaşmasında özündə mifik təfəkkürü yaşadan obrazlar üstünlük təşkil edir ki, həmin obrazların mifik təfəkkürlə bağlılığı ədəbiyyat müstəvisinə keçdikdə daha aydın nəzərə çarpmağa başlayır.

12. Qorxu bədii nümunənin şifahi və yaxud yazılı söz yaradıcılığı layına mənsub olmasından asılı olmayaraq uşaq ədəbiyyatı aspektində didaktik mahiyyət daşıyaraq naməlumun məlumluğa keçidini şərtləndirir. Bu baxımdan da uşaq ədəbiyyatının başlanğıcı hesab edilən folklor nümunələrində qorxudan geniş şəkildə uşaq tərbiyəsində istifadə edildiyi diqqət çəkir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1.Uşaq şeirinin folklor qaynaqları (Abdulla Şaiqin yaradıcılığı əsasında) // Sivilizasiya jurnalı, Bakı: 2015, № 8, s.27-32.

2. M.H.Təhmasib və uşaq folkloru məsələləri / "Görkəmli Azərbaycan folklorşünası Məmmədhüseyn Təhmasib" mövzusunda Elmi Konfransın materialları, –Bakı: 5 oktyabr, – 2017, – s. 141-146

3.Uşaq folkloru və ədəbi nağıllar // Filologiya məsələləri, Bakı: 2018, №20, s.383-396.

4.Azərbaycan uşaq folklorunun ritual-mifoloji əsasları / VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu materialları, Bakı: 13-15 iyun, 2019, s.181-184.

5.Uşaq ədəbiyyatında kumulyativlik və onun ritual-mifoloji əsasları // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, Bakı: 2019, №3 (110), s.279-282.

6. Mifoloji obraz və motivlərin uşaq ədəbiyyatına transformasiyasının bədii-üslubu xüsusiyyətləri // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: 2019, №3 (111), s.265-268.

7. XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatında qorxu motivi / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2019, s.321-323.

8. Azərbaycan uşaq folklorunun ritual-mifoloji əsasları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu. 2019, №1 (54), s.150-156.

8. Azərbaycan uşaq folklorunun ritual-mifoloji əsasları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu. 2019, №1 (54), s.150-156.

9. Модели фольклора и детская литература / Молодой исследователь: вызовы и перспективы. Международная научно – практическая конференция / Москва: 28 март, 2019, с.101-102.

10. Роль паремиологических единиц в формировании структуры художественного произведения // Хабаршы. Вестник Казахского Национального Университета им.Аль-Фараби, серия филологическая, № 1(177) 2020, с. 58-64 https://philart. kaznu.kz/ index.php/1-FIL/article/download/2776/2635/5315

Dissertasiyanın müdafiəsi 29 may 2025-ci il tarixində saat 14:00 AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA Folklor İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları AMEA Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.04.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 32634 işarə
Tiraj: 100